Sentyabrın 8-dən 12-dək “Crescent Beach” mehmanxanasında təlimçi müəllimlər üçün 5 günlük treninq keçirilib.

Treninqlər “İnsan hüquqlarının məktəblərdə tədrisi” layihəsi çərçivəsində fəaliyyət göstərən ümumtəhsil məktəblərində qeyd olunan sahə üzrə müəllimlərin bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə təşkil olunub.

Məlumat üçün qeyd edək ki, Norveç Qaçqınlar Şurası 2006- cı ildən Təhsil Nazirliyi ilə birgə “İnsan hüqularının məktəblərdə tədrisi “ proqramı çərçivəsində ölkəmizin bir sıra şəhər və rayonlarında təlim kursları keçirir. 2007-ci ildən isə bu layihə Beynəlxalq Xilasetmə Komitəsi tərəfindən davam etdirilir.

Böyük Britaniyanın York şəhərindəki Müqəddəs Con Universitetinin nəzdində fəaliyyət göstərən Qlobal Təhsil Mərkəzinin İnsan hüquqlarının tədrisi üzrə beynəlxalq məsləhətçiləri tərəfindən aparılan treninqlərdə Bakı, Gəncə şəhər, Füzuli, Ağcabədi və Göyçay rayonu ümumtəhsil məktəblərinin müəllimləri iştirak edib.

Treninqin son günü təntənəli mərasim keçirilib və layihə iştirakçılarına sertifikatlar təqdim olunub.